Sort Azərbaycan Elmi – Tədqiqat Tərəvəzçilik İnstitutunda mürəkkəb hibridin çarpazlaşdırılmasından alınmışdır.

$$Vətən - 1\ x\ 121\ VF\ \frac{145-21-4}{QTWF_9} F_{10}S_{11}$$

2011-ci ildə respublikada rayonlaşdırılmışdır.



Sort tezyetişəndir. Kütləvi cücərmədən yetişmənin əvvəlinə qədər 100-105 gün keçir.Meyvənin forması yumru, səthi hamar, rəngi qırmızı, yuvaların sayı 4-5-dir.

Ümumi məhsuldarlıq illər üzrə 496,0-520,0 s/ha, əmtəəlik məhsul 484,5-496,8 s/ha, meyvənin çəkisi 140,0-170,0 q-dır. Meyvədə quru maddənin miqdarı 5,8-6,1 %, turşuluq 0,20-0,30, ümumi şəkər 2,6-2,8 %, askorbin turşusu (vitamin C) 25-28 mq%-dir. Dequstasiya qiyməti təzə meyvədə 5 baldır. Sort təzə halda istifadəyə, həmçinin tomat-pasta və şirə istehsalı üçün yararlıdır. Sort abiotik amillərə, saxlanmağa davamlıdır.

Pomidor bitkisinin gövdəsi dikduran və yerə sərilən olub, uzunluğu 3m-ə çatır. Yarpağı adi, ştamblı və kartof yarpağı kimi olub, kənarı tam və ya lələkvari kəsiklidir. Çiçəkləri salxım formasındadır və yarpaq qoltuğundan əmələ gəlir. Onlan əsasən ikicinsli, az hallarda bircinslidir, yaşılımtıl-sarı rənglidir. Meyvəsi giləmeyvədir. İriliyi 1 qramdan, 900q-a qədər, müxtəlif formalarda və rənglərdə olur.

Pomidor istilik və işıqsevən bitkidir. Bitkilərin normal boy inkişafı üçün $22^0$-$24^0$C temperatur tələb olunur. Çox vaxt $15^0$C və daha aşağı temperaturda çiçəklənmə, $10^0$C və daha aşağı temperaturda isə böyümə prosesləri dayanır. $35^0$C-dən yüksək temperaturda, bitkilərin boy və inkişafı zəifləyir. Bitki üçün torpağın optimal nəmliyi 75-80% hesab edilir. Pomidor müxaniki tərkibcə yügül torpaqlarda yaxşı becərilir. Çiçəklmədən 35-40 gün sonra məhsulu yığılır.



Pomidor bitkisi üçün ən yaxşı sələf bitkiləri – xiyar, digər bostan bitkiləri, soğan, paxlalılar, kələm hesab edilir. Bu bitki üçün mexaniki tərkibcə yüngül, qumsal torpaqlar daha əlverişlidir. Respublikanın tərəvəzçilik bölgələrində şitillər əsasən parniklərdə və

polietilen örtüklü istixanalarda 35 – 40 gün ərzində becərilir. Bölgələrin iqlim şəraitindən asılı olaraq əkin üçün hazır olan şitillər may ayının I ongünlüyünə qədər olan müddətdə açıq sahədə 70 x 35 sm sxemi üzrə əkilir.

Vegetasiya müddətində 2-3 dəfə kultivasiya çəkilməli, bitki araları 4-5 dəfə alaqdan təmizlənib, yumşaldılmalı və bitkinin boğazı doldurulmalıdır. Bitkiyə 1 dəfə yemləmə əkildikdən 10-12 gün sonra, 2-ci yemləmə isə meyvə əmələ gəlmə zamanı verilməlidir.

Bitkiyə qulluq işləri əsasən cərgə və bitki aralarının becərilməsi, alaqların vurulması, gübrələrin verilməsi, suvarılması, xəstəlik və zərərvericilərə qarşı mübarizədən ibarətdir. Sortun toxumçuluq işi pomidorun ilkin və reproduksiya toxumçuluğuna aid metodik göstərişlər tələblərinə uyğun icra edilir.

Pomidor toxumları səpindən 4-5 gün əvvəl 5%-li xörək duzu məhlulunda ağırlığına görə seçilməli, təmiz su ilə yuyularaq qurudulmalıdır. Səpilən toxumun əkin keyfiyyəti ən azı 96-98% olmalıdır.

Cücərtilər əmələ gəldikdən sonra şitillikdə havanın temperaturu 4-5 gün müddətində 13-16$^0$C, sonralar isə 20-22$^0$C həddində saxlanılır. Əkinə 3-5 gün qalmış şitillik daim havalandırılır.

Meyvədə toxumun miqdarı ortadır və 1000 ədəd toxumun çəkisi 3 qramdır. 1 ton meyvədən 3,0-3,5 kq toxum istehsal olunur. Sortun toxumları adi şəraitdə cücərmə qabiliyyətini 3-5 il saxlaya bilir.

İri toxumçuluq təsərrüfatlarında pomidor toxumları (BCT) VST – 1, 5, kiçik fermer təsərrüfatlarında isə (BCT) VST – 0,5 markalı toxum çıxaran maşınla çıxarılır.

*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*



# Pomidor XƏZƏR sortu